# Özü və sözü bir olan şair



Orxan FİKRƏTOĞLU

Həqiqət adama birdən-birə aşkar olur. Uzun illər tanıdığım Asif Bəkirlinin şeirlər kitabını vərəqlədiyim zaman qəfil anladım ki, bu qaranlıq gerçəklikdə Asif Bəkirli mənim üçün "aydın" adamdır. Ona görə ki o heç kəsdən çəkinmədən düşündüyünü deyir və ancaq hiss etdiklərini qələmə alır. Onun dilində, daha çox da əməlində yalan və pafos yoxdur. O, heç zaman məni, xalqını və ən başlıcası özünü aldanmır. Necə varsa elədir. Dilin, düşüncənin əsgəridir. Qəmin arifidir. İnsanları qaranlıqdan aydınlığa çıxarandır. Ətrafında baş verənlərə münasibətdə hətta düzgün anlanılmasa belə yolundan çəkinən deyil. Asifin aydın olması özünə bəs etmir. O, ətrafını da aydın etmək və aydın görmək istəyir. Əslində, insanın aydını, qaranlığı olmur. Özünü dərkin, özünü ifadənin aydını, qaranlığı olur. Asif də daha çox bu mənada aydındır. Şeir insanın xarakteridir. Nə deyirsiniz deyin, şeir insanın astar üzünü işığa çıxaran "lakmus kağızıdır". Bu anlamda şair şeirini tanıtdığı qədər şeir də şairini tanıdır. Mən insanın üzünü görməsəm belə onu yazısından tanıya bilirəm. Asif bu mənada da çox istedadlıdır. Onun qədər şerilərinə oxşayan və ya onun qədər şerləri təki yaşayan ikinci bir şair ola bilməz.

*Kimsəyə bir quyu qazmamışam mən,*
*Heç kimi heç yerdə satmamışam mən,*
*Qaydanı heç zaman pozmamışam mən,*
*Bəs niyə həyatın üzü başqadır?*

Həqiqətən də, düzgün yaşayan insan, görəsən, nəyə görə müxtəlif maneələrlə üzləşir? Nəyə görə dünya daha çox yalanın və yalançıların üzünə gülür? Bu sualın cavabını düşünməklə Asif Bəkirli Avropa klassikləri ilə eyni müstəvidə görünür. Dantenin arealındadır. Şillerin iztirablarını yaşayır. Tomazzo Komponellanın gəncliyindədir. Asifin sözü ilə ağlı, ağlı ilə ürəyi, ürəyi ilə əməli eyni dildə danışır, eyni boydadır, eyni kökə köklənib. O, bir cür yazıb, bir cür düşünüb, tamam başqa cür yaşayanlardan deyil. O, tamdır və nə dediyini anlayıb, yaşayıb deyir. Və bu bir dilli adam bütövdür deyə o qədər aydındır ki səni də istəmədən aydınlığa çıxarır. Onun sözü rəmziliklər dolanbacında sənə sirli mənalar açmır. O ,"rebus" şeirlər yazmır. Onun sözü sənə Avropanın modern dərgilərindən gələn estetikanın mənimsənilməsi faktını da xatırlatmır. Onun şerləri oxunduqca sənə doğma gəlir. Əvvəlcə bunun niyə belə olduğunu anlamırsan. Bir qədər bu şeirləri oxuduqdan sonra başa düşürsən ki, Dədə Qorqud nəsihətlərini andıran bu poeziya sənə içindən pıçıldadığı üçün belə doğmadır. Sən bu doğmalığı unutsan belə, özün də bilmədən illərdir ki, bu şerlərin ovqatına köklənib yaşamısan.

*Ədalətsiz məhkum olan, qurbanların naləsiyəm,*
*Haqq yolunda şəhid olmuş babaların nəvəsiyəm,*
*Başqa yol yox, haqq yoluyla yorulmadan gedəsiyəm.*
*Ədalətin boğulmayan, qırılmayan gur səsiyəm.*

Onun fikirlərinin alt qatı ilə üst ilisturasiyası səni kədərə və ya sevgiyə kökləmir. Asif Bəkirlinin şeiri də əməli qədər aydındır. Bir üzlüdür və bir mənalıdır. Asifin şerləri o qədər aydındır ki, səni də aydınlaşdırır. Və bu şerlərdə deyildiyi kimi özündən bir qarış hündürdə yaşamaq istəyirsən. Dünyada elə mətləblər var ki, onları ancaq şerlə ifadə etmək mümkündür. Adətən, şeir insan təfəkkürünün gərildiyi anı qeydə alınır. Asifin şerləri bu anlamda gərgindir. Və eyni zamanda bu şeirlərdə düşüncənin məhsulu olan nəticə də var. Sən bu gəlinən nəticələrlə yaşaya da bilərsən.

*Dərdini bölüşmə heç bir nadanla,*
*Dəyişik salma sən baharı qışla,*
*Dərdi bölüşərlər dərdi qananla,*
*Ömrü sən kədərsiz vurarsan başa.*

Asif Bəkirlinin şeirləri səni vətəndaş edənə qədər dəyişir. Onun səndən istədiyi də əslində sözü qədər aydındır. Sadəcə sən bu aydınlıqdan uzaq düşübsən deyə bu gerçəkliyə yadsan. O səni də özü kimi görmək istəyir. Aydın sözü Osmanlı türkcəsində ziyalı mənasında anlanıldığı halda, mənim dilimdə daha çox anlaqlı, başa düşülən mənasındadır. Asif Bəkirli ən əvvəl həyatda, sonra da şeirlərində yalançı olmadığı üçün, səmimi olduğu üçün aydındır. Və bu aydınlığın gerçək üzü onun sözündən çox əməllərindədir. Bir söz adamının sözündən qabaq əməlindən danışılması bəlkə də absurddur. Amma kim mənə sübut edə bilər ki, insan ömrü, ümumiyyətlə, absurd deyil. Asif Bəkirli dövlətin adamıdır və eyni zamanda dövlət adamıdır. Asif Bəkirli xalqın adamıdır və eyni zamanda xalq adamıdır. Və bu anlamda o daha çox aydındır. Ən azı ona görə ki, insan faktoru onun bir başa işidir. O, uzun illərdir insan resurslarının xalqa çevrilməsi işi ilə də məşğuldur. Onun şerləri şeirdən çox illərdən üzü bəri süzülüb gələn əxlaq kodumuzun qorunmasına yönəli hayqırtılarıdır.

Asif Bəkirli sözü ilə ətrafındakı insanları yoğurub vətəndaş etmək istəyir. İstəyi insanlığı və insanları ədalətli, vicdanlı və insanlığa xidmətdə görməkdir. Asif yolundan azmış insanları islah etməkdən də çəkinmir. Onlara gülməklə bu yolun nadan yolu olduğunu onlara anladır.

Onun şerlərindəki vətəndaşlıq publisistik müstəvidə aransa da bir arzu olaraq poetikdir. Və bu publisistik poeziya lövhəsinin oxucuya mistik təsiri isə xüsusi araşdırma tələb edir. Asif Bəkirlinin bu kitabında mənəvi plastda düşünülən mövzuların bolluğu da nəzəri cəlb edir.

WWW.KASPI.AZ 7 yanvar 2017